# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 455** **Bakı şəhəri, 30 dekabr 2022-ci il**

***"Azərbaycan Respublikası ərazisində beynəlxalq avtomobil daşımalarını tənzimləyən "İcazə Sistemi" haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 10 yanvar tarixli 6 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 10 yanvar tarixli 6 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 3, maddə 148; 2003, № 8, maddə 460; 2009, № 1, maddə 34; 2017, № 2, maddə 286; 2019, № 1, maddə 153, № 12, maddə 2094; 2021, № 5, maddə 533; 2022, № 4, maddə 390) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası ərazisində beynəlxalq avtomobil daşımalarını tənzimləyən "İcazə Sistemi" haqqında Əsasnamə"yə aşağıdakı məz-munda 7-1-ci hissə əlavə edilsin:

"7-1. Bu Əsasnamənin 7-ci hissəsində nəzərdə tutulmuş Beynəlxalq Nəqliyyat Forumunun "İcazə"ləri "Avropa Nəqliyyat Nazirləri Konfransının Çoxtərəfli Kvota Sistemi çərçivəsində həyata keçirilən daşımalar üçün Keyfiyyət Xartiyası"nın tələblərinə cavab verən operatorlara verilir.".

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş naziri**